**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**



# BU, SƏMƏD VURĞUNUN DİLİ DEYİL

Sosial şəbəkələrdə və bəzən də saytlarda Səməd Vurğunun bir bənd belə bir şeiri paylaşılır:

Arxalıya arxa durma,
Deməsinlər yamaqdı,
Arxasıza arxa dur ki,
Desinlər ki, dayaqdı.

Bu bir bənd şeir nə Səməd Vurğunun üslubuna uyğun gəlir, nə də dilinə. Əslində bu bənd necədi?

(Ardı 2-ci səhifədə)

Ədalət 2019.- 18 aprel.- S.1-2.

*Aqil ABBAS*

# BU, SƏMƏD VURĞUNUN DİLİ DEYİL

(əvvəli 1-ci səhifədə)

Şair qələm yoldaşları ilə Nizami muzeyinin yanından keçərkən görür bir gənc çox pəjmürdə halda oturub skamyada. Amma nə qədər pəjmürdə olsa da, dahi şairi görəndə ehtiram əlaməti olaraq yerindən qalxır. Şair gəncə yaxınlaşır, soruşur ki, oğlum, bir bədbəxt hadisəmi olub, niyə belə pəjmürdəsən?

Gənc deyir ki, Səməd əmi, elə bir bədbəxt hadisə olmayıb, amma...

- Nə amma, oğul?

- Mən kənddən gəlmişəm, aspiranturaya daxil olmaq istəyirəm. Bir yer var, iki namizəd. Məni bu gün universitetin rektorluğuna çağırdılar, dedilər ki, o biri namizəd hörmətli bir adamın qızıdı, yüksək yerdən də tapşırılıb, o qəbul olunmalıdı. Yəni biz ona beş yazacağıq, sənə dörd. Ona görə bir az halım yaxşı deyil.



Səməd Vurğunun qaşları çatılır, bir az fikrə gedir, sonra cibindən bir dəftərçə çıxarır, ora nə isə yazır, verir gəncə:

- Oğul, qayıt get universitetə, bu kağızı ver Cəfər Xəndana.

Həmin vaxt universitetin rektoru görkəmli alim Cəfər Xəndanıymış. Gənc kağızı alıb qayıdır universitetə, katibəyə deyir ki, məni Səməd Vurğun göndərib. Buraxırlar rektorun yanına. Gənc kağızı verir rektora və deyir ki, bunu Səməd Vurğun göndərib.

Rektor açıb kağızı oxuyur, rəngi qaralır, bərk dilxor olur. Sonra imtahan götürəcək müəllimləri yanına çağırır və deyir:

- Dərhal mənim yanımda bu gəncdən imtahan götürüb özü də əla yazırsız.

Müəllimlər deyilən kimi də edirlər. Gənc həqiqətən də "beş"ə layiqiymiş.

Gənc universitetdən çıxıb qaça-qaça gedir Yazıçılar İttifaqına. Girir şairin yanına, təşəkkür edir və soruşur:

- Səməd əmi, o kağızda nə yazmışdınız? Oxuyandan sonra rektorun rəngi qaraldı.

Şair siqaretindən bir qullab vurub deyir:

- Oğul, mən o kağıza dörd misralıq bir şeir yazmışdım.

Dayaqlıya dayaq durma,
Yamaq deyərlər sənə.
Dayaqsıza dayaq dur ki...
Dayaq deyərlər sənə.

Mən bu mövzuda mübahisə etmək istəmirəm. Qoy sənətşünaslar desinlər, hansı düzdü?

***P.S.** Oxucular da saytımızın Facebook səhifəsinə girib fikirlərini bildirə bilərlər.*